Ədalət.- 2021.- 27 fevral. S. 16.

***Rəsmiyyə Heybətağaqızı***



# *Xocalı*

***Qopdu tufan kimi top-tüfəng səsi,***
***Yurdumu viranə qoydu o gecə.***
***Cavanın, qocanın ahı-naləsi,***
***Bağrımın başını oydu o gecə.***

***Günahsız körpənin, qızın, gəlinin,***
***Köksünü süngüylə oydular o gün.***
***Yurdun dağıtdılar vallah bir elin,***
***Şəhəri viranə qoydular o gün.***

***Minlərlə insanın axdı göz yaşı,***
***Soldu bir şəhərin gülər camalı.***
***Qana bələdilər torpağı, daşı,***
***Yerlə-yeksan oldu qədim Xocalı.***

***O gecə göylər də susdu, kiridi,***
***Qız-gəlin tək qaldı düşmən əlində.***
***Bir elin üstünə tanklar yeridi,***
***Bir dəhşət yaşandı, Oğuz elində.***

***Keçsə də əsrlər, keçsə də illər,***
***O günü unudan olmayacaqdır.***
***Eşitsin bu dünya, eşitsin ellər,***
***Qisas qiyamətə qalmayacaqdır.***